## Şəmsulla Aqayi

### Gözləyirsən

Kül sənin başına beyağıl canım
Hər quru ağacdan bar gözləyirsən
Dilənçi varlıdan yolçu adamdan
Daş sənin başına var gözləyirsən

Kül sənin başına beyağıl canım
Görürəm çaşıbdır ağlın huşun da
Utanmaz utanmaz ahıl yaşında
Boynunu bükübsən bulağ başında
Birçəyi ağarmış yar gözləyirsən

Kül sənin başına beyağıl canım
Var üstə qan salan bacı - qardaşdan
Pis gündə gizlənib itən yoldaşdan
Şəmşirin arxadan vuran yoldaşdan
Utanmaq, ərimək, ar gözləyirsən

Kül sənin başına beyağıl canım
Hər ötən buluddan bir damla yağış
Hər yetən gözəldən bir süzgün baxış
Səndə ay *Şəmsulla* gələndə hər qış
Hər dərə - təpədən qar gözləyirsən